# *Gürcü analitik:* "Prezident İlham Əliyevin bəyanatı iki qonşu ölkənin necə yaşamalı olduğuna nümunə ola bilər"

**"Prezident İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Kobaxidze ilə görüşdən sonra Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin bütün sahələrdə uğurla inkişaf etdiyini bildirib. Bu bəyanat bir daha iki qonşu ölkənin necə yaşamalı olduğuna bir nümunə ola bilər".**



AZƏRTAC xəbər verir ki, bu sözləri gürcü siyasi analitik Amiran Salukvadze "Günün xronikası" proqramında çıxışı zamanı deyib.

Onun sözlərinə görə, Prezident İlham Əliyev bu mühüm bəyanatla həm də Gürcüstanın regiondakı rolunu vurğulayır. "Gürcüstanın yeni seçilmiş Baş nazirinin ilk dəfə Azərbaycana, Bakıya gəlməsi ənənəvi haldır. Bu gün dünyada hökm sürən vəziyyət fonunda regional təhlükəsizlik və sülhlə bağlı bəyanatlar mühüm əhəmiyyət kəsb edir. Bunun fonunda Qafqazda stabil qonşuluq siyasəti çox vacibdir", - deyə analitik qeyd edib.

Azərbaycan.- 2025.- 19 yanvar ( № 12).- S.2.